*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin* ELMİ ƏSƏRLƏRİ № 36, 2024
НАУЧНЫЕ ТРУДЫ Азербайджанского Государственного Университета Культуры и Искусств № 36, 2024
SCIENTIFIC PAPERS *of Azerbaijan State University of Culture and Arts* № 36, 2024

## SƏNƏTŞÜNASLIQ

**UOT 745.52**

**Qasımzadə Gülşən Tofiq qızı**
**Azərbaycan Dövlət Mədəniyyətvə İncəsənət Universiteti**
**baş müəllim**
**E-mail: gulshengasimzadeh@yahoo.com**

# ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANIN SƏFƏVİLƏR DÖVRÜ SARAY XALÇALARI

**Xülasə:** Məqalədə Azərbaycan xalçaçılıq sənətinin Səfəvilər sülaləsinin hakimiyyəti dövründə keçdiyi tarixi inkişaf mərhələləri müxtəlif kontekstlərdə araşdırılır. Azərbaycanda xalçaçılıq sənətinin mənbəyi, inkişafı, ənənəvi xüsusiyyətləri, dünya incəsənəti ilə qarşılıqlı əlaqəsi, o cümlədən dünya mədəniyyətində yeri və əhəmiyyəti kimi müxtəlif mövzulara aydınlıq gətirilir. Həmçinin məqalədə Səfəvilər sülaləsinin hakimiyyəti dövründə Azərbaycan xalçalarının bədii-estetik xüsusiyyətlərinin rəngarəngliyi tədqiq edilir. Tədqiqatda şərti olaraq müxtəlif xalçaçılıq məktəbləri, onların bədii xüsusiyyətlərinin, xarakterik naxış növləri, xalçaçılıq texnikaları, həmçinin Azərbaycanda bu qədim sənət sahəsində mövcud vəziyyət araşdırılmışdır.

**Açar sözlər:** miniatür üslubu, xalça, ornament, incəsənət, saray, təsviri sənət, Səfəvilər dövrü, dekorativ-tətbiqi sənət

Xalçaçılıq sənəti nəinki ölkəmizdə, o cümlədən dünya incəsənət tarixinin aparıcı rola malik olan xalq sənətidir. Bu sənətin yaranma tarixi və sonrakı inkişaf mərhələləri dünyanın müxtəlif ölkələrində elmi-tədqiqat obyekti kimi öz aktuallığını saxlamaqdadır.

Milli sənət tarixinin ayrılmaz hissəsi olan ənənəvi xalçaçılıq sənətimiz tarixən bir neçə istiqamətdə inkişaf etmişdir. Bu haqda sənətşünaslıq üzrə elmlər doktoru, professor Kübra Əliyeva "Xovsuz xalçalar" adlı kitabında geniş məlumat verərək xalça nümunələrini əsaslı surətdə tədqiq etmiş və onları dörd əsas qrupa bölmüşdür. İlk qrup olan yarımköçəri maldar tərəkəmə xalçaçılığına aid olan nümunələr həndəsi dekor və müxtəlif astral və totem, daha çox zoomorfik işarələri ilə seçilirdi. Oturaq əkinçi qrupunun xalçaçılığına aid olan nümunələrdə stilizə edilmiş və həndəsiləşdirilmiş bitki motivlərinə üstünlük verilirdi. Burada rast gəlinən zoomorf motivlərdə fiqurlar bütöv şəkildə təsvir olunurdu. Üçüncü qrupa satış məqsədi ilə toxunan xalçalar aiddir. Xalçaçılıq artıq ayrıca sənət növünə çevrildikdən sonra bu zərif sənət nümunələri həm evlərdə, həm də əsasən şəhərlərdə fəaliyyət göstərən xüsusi emalatxanalarda xüsusi sifariş ilə toxunmağa başlayır. Dördüncü qrupa aid olan saray xalçaları isə sarayların nəzdində fəaliyyət göstərən xüsusi emalatxanalarda toxunur və kübar təbəqənin məişət və estetik tələblərini ödəyirdi. Onları digər

xalçalardan fərqləndirən əsas xüsusiyyət ilk növbədə istehsal prosesində peşəkar rəssamların iştirak etməsi və istehlakçıların elitar səviyyəsi idi. Qeyd etməliyik ki, saray mühitinin ayrılmaz parçası olan xalı və xalça məmulatlarının təkamül yolu yüksək inkişaf etmiş şəhər, o cümlədən dövlətçilik tarixi və saray mədəniyyətinin mərkəzi olan paytaxt şəhərlərinin tarixi fonunda təhlil edilməlidir.

"Əcnəbi ölkələrin Azərbaycan xalı-xalçalarına marağı əsasən XV əsrin sonundan başlamışdı. O zaman ilk avropalı səyyahlar öz yol qeydlərində, şəxsi gündəliklərində dekorativ-tətbiqi sənətin bu növünə yüksək qiymət verirdilər" [4]. "Təbriz xalçaçılıq məktəbi ilə əzəldən sıx bağlı olan "saray" xalı-xalçaları mövzusu tədqiqatçıların diqqətini daim özünə cəlb edirdi. Lakin Azərbaycan xalçaçılıq sənətinin öyrənilməsi zamanı ilk tədqiqatçılar tərəfindən Təbriz xalçalarının İran xalçaları kimi müəyyən etməsi kimi yanlışlıqlar olmuşdu" [9].

Eyni zamanda, Şimalı Azərbaycan xalı-xalçalarının hamısı "Qafqaz" xalçaları kimi təqdim edilərək Dağıstan və erməni xalçaları ilə eyni qrupa daxil edilirdi [1, səh.4]. Məsələn, 1939-cu ildə A.Poupun redaktəsi ilə "İran (fars) incəsənətinin icmalı" fundamental monoqrafiyası nəşr edilmişdi. Səkkiz cildlik bu əsərin albom hissəsində Təbriz xalçaçılıq məktəbinin ən gözəl nümunələri təqdim edilir. Onların arasında "Bağ-meşə", "Ağaclı", "Ləçəkturunc", zoomorrf motivli, sujetli xalçalar, namazlıqlar və s. var. Lakin, bütün bu nümunələr İran xalçaları kimi göstərilir [10, səh.51]. Eyni vəziyyət Şərq xalçalarına həsr olunmuş digər nəşrlərdə də müşahidə olunur. C.Mak Millanın "İslam xalçaları" (1965), K.Erdmanın "Şərq xalçalarının 700 ili", L.Kabalovanın "Orient teppiche" (1975) və b. nəşrləri də buna misal gətirmək olar.

1950-ci ildə F.V.Qogelin monoqrafiyası nəşr olunmuşdu. Qogel tamamilə düzgün olaraq yazır ki, "XVI-XVII əsrlərdə toxunan məşhur xalı-xalçalar qrupu – zoomorf naxışlı, ov xalçaları və çox maraq kəsb edən nəbati motivli xalçalar Azərbaycan xalçalarıdır... Onları İran xalçaları kimi tərif etmək düzgün deyil" [6, səh.72]. Sözsüz ki, buna səbəb Azərbaycanın ərazisinin 1828-ci ildə Rusiya və İran arasında bölünməsi idi və bu cür süni bölgü bütövlükdə Azərbaycan incəsənəti tarixinin, xüsusən də saray xalçaları tarixinin təhrif edilməsinə gətirib çıxarmışdı.

Məlumdur ki, Azərbaycan xalçaşünaslığının tədqiq olunmasına ən böyük töhfəni görkəmli xalçaşünas alim Lətif Kərimov vermişdir. 1954-cü ildə Lətif Kərimov Azərbaycan xalça sənətinin öyrənilməsinə dair "Təbriz tipli xalçalar" adlı məqaləsində belə bir qənaətə gəlmişdir ki, cənubi və şimalı Azərbaycanda toxunan xalçalar vahid bir ailə təşkil edir [7, s.125]. Görkəmli alim müəllifi olduğu "Azərbaycan xalçası" monoqrafiyasının ikinci cildində (1983) xalçaçılıq sənətinin tarixinin icmalında Sasanilər dövrünün, ilk ərəb xəlifələrinin dövrünün və Azərbaycan intibah dövrünün saray xalçaları haqqında yazmış və Səfəvilər dövrünə, yəni saray xalçalarının həm istehsal, həm bədii-estetik baxımdan ən yüksək zirvəsinə çatdığı dövrə də xüsusi diqqət yetirmişdir [7, s.13-43].

Azərbaycan xalçalarının yeddi əsas xalçaçılıq məktəblərinin (Quba, Şirvan, Bakı, Gəncə, Qarabağ, Qazax, Təbriz) böyük peşəkarlıqla öyrənilməsində sənətşünas Kübra Əliyevanın tədqiqatlarının xüsusi rolu vardır. Bu araşdırmalar Təbrizin "saray"

prioritetlərinin istehsal mərkəzi kimi rolunu təsdiq edir. L.S.Bretanitski və B.V.Veymarn "IV-XVIII əsrlər Azərbaycan incəsənəti" monoqrafiyasında yazırlar: "Təbriz xalçaları şahın özünə məxsus emalatxanalarda yaranırdı və Səfəvi kübarlarının saray və imarətləri üçün bahalı bəzək əşyaları idi. Onların bədii mükəmməlliyi XVI-XVII əsrlərdə Səfəvilər dövlətinin başqa mərkəzlərində, xüsusən də Kaşanda xalçaçılıq sənətinin inkişafına ciddi təsir göstərmişdi" [5, səh.247].

Orta əsrləri Azərbaycan incənəti tarixinin İntibah dövrü adlandırmaq olar. Yüksək zövq, dəqiq riyazi hesablamalar və İslam dinin sərt çərçivələri daxilində formalaşan bu istiqamət incəsənətin bütün sahələrinə öz yüksək töhfəsini bəxş etmişdir. Tədqiqat obyekti dövründən başlayaraq Azərbaycanın Gülüstan sülh müqaviləsi əsasında iki yerə bölünməsinə qədər olan müddətdə dövlət daha çox hazırkı Cənub zonasından idarə olunurdu. Və məntiqli olaraq Azərbaycanın orta əsr sarayları bu ərazilərdə tikilmişdi. Vaxtaşırı qonşu dövlətlərlə müharəbələr səbəbindən paytaxt şəhər bir neçə dəfə dəyişdirilmiş və buradakı memarlıq abidələri dəfələrlə yerlə yeksan olunmuşdu. Ancaq bununla belə bu günümüzə qədər gəlib çıxan bəzi memarlıq əsərlərindən danışa bilərik. Ümumi Şərq memarlıq üslubuna tabe olan saray komplekslərinin daxili məkanını bəzəyən xalılar ölçüsünə və üslubuna görə ənənəvi xalılardan xeyli fərqlənirdi. Bu saray komplekslərindən Ali Qapı I (Təbriz), Ali Qapı II (İsfahan), Çəhəl Sütun Sarayı (Qəzvin), Haşt-Behişt Sarayı (İsfahan), "Ayini xanə" və ya "Güzgülü saray" (İsfahan), "Fərəh Abad" saray kompleksi, (Mazandaran), Gülüstan sarayı (Tehran) və digərlərinin adlarını sadalamaq olar. Adlarını çəkdiyimiz tikililərin möhtəşəm və əzəməti memarlığı, geniş daxili planlaşdırması, zəngin divar və tavan dekorasiyası döşəmələrdə istifadə olunmuş xalıların ən azı onlar qədər zənginliyindən və dolğunluğundan xəbər verir.

Səfəvilər dövründən başlayaraq, biz saray xalçalarının istehsalı ilə bağlı artıq dəqiq məlumat əldə edirik. Məlumdur ki, saray xalçaları professional miniatür təsvir edən rəssamların, ornamentalistlərin və xəttatların əvvəlcədən hazırladığı eskizlərə əsasən yaradılırdı. Qeyd edildiyi kimi, saray xalçaları, əlyazma kitabları və dekorativ-tətbiqi sənətin digər növlərini vahid kompozisiya həlli və ornamental baza birləşdirir. Bu, həm dünyada geniş yayılmış müsəlman incəsənətinin ümumi qanunları, həm də əksər eskizlərin eyni müəllif tərəfindən hazırlanması ilə bağlı idi. XVI əsr Təbriz xalçalarının bədii xüsusiyyətləri onları iki qrupa – ornamental və süjetli xalçalara bölməyə imkan verir. Ornamental xalçaların eskizləri təzhib prinsipinə sujetli xalçaların eskizi isə miniatür süjetlərinə əsaslanaraq tərtib edilirdi. Ornamental xalçaların da əsas kompozisiyaları öncədən işlənib hazırlanırdı. Saray xalçaları kompozisiyalarının spesifikliyi onların dəqiq riyazi hesablama və həndəsi quruluşunun olmasından ibarət idi. Bu kompozisiyalar xalçada bütün hissələrin simmetrik olması və tarazlığı əsasında qurulurdu.

Səfəvi xalçaçılıq məktəbinin yaratdığı göl kompozisiyalı incilərin arasında ən məşhur nümunə "Şeyx Səfi" (Ərdəbil) xalçasıdır (şəkil 1.). Bu xalça hal-hazırda Viktoriya və Albert muzeyində (London, Böyük Britaniya) saxlanılır. Bu xalçanın tarixçəsi bir çox monoqrafiyalarda əks olunub [8, s.262; 12, s.29-32; 3, s.68-73]. Çox

güman ki, xalça şah Təhmasibin sifarişi ilə, XVI əsrin ortalarında (1539-cu il), Ərdəbildə, məxsusən bu şəhərdə yerləşən Şeyx Səfi məqbərəsi üçün toxunmuşdu. A.Poup və K.Erdman məhz bu versiyanı səsləndirirdilər.



Şəkil 1. Ərdəbil, "Şeyx Səfi" yun xovlu saray xalısı. XVI əsr. London, "Viktoriya və Albert" muzeyi. 10,51x5,34 m, 56 $m^2$

Xalçanın tünd-göy rəngli ara sahəsinin mərkəzində iri ulduz şəkilli qızılı-qırmızı göl-günəş təsvir olunub. Ara sahə səmanın, göl isə günəşin rəmzidir. Göl onaltı kiçik ovallarla əhatə edilir, ovalların ucları iki tərəfdən itiləşmişdir. Orta ara sahənin uzununa yerləşən mehvəri üzərində gölün iki tərəfində sanki göldən asılmış çıraqlar asılıb. Bu çıraqlar ilahi nurun rəmzidir. Mərkəzi ara sahənin künclərində mərkəzi gölün dörddə bir hissələri təkrar olunaraq yerlışdirilib. Hər hissə eyni oval formalı göllərlə tamamlanır.

"Əfşan" saray emalatxanalarında professional rəssamlar tərəfindən işlənmiş çox məşhur kompozisiyalardan biridir. "Əfşan" – hərfi mənada "səpələnmiş", "səpələnən" deməkdir. Bu tor kompozisiyasının bir növüdür və ara sahəyə səpələnmiş iri və xırda palmettalar, güllər və qönçələr kimi görünür. "Əfşan" kompozisiyasından divar naxışlarında, kitab dekorunda və parçada istifadə edilirdi.



Şəkil 2. Səfəvi xovlu yun saray xalısı. "Cənnət bağı" xalısı. XVI əsr. Poldi Pizolli. Milan



Şəkil 3. Səfəvi xovlu yun saray xalısı, "Şah" xalısı. XVI əsr.NyuYork. Metropol

"Şah Abbas" qrupuna aid ən gözəl xalçaların nümunələri Viktoriya və Albert muzeyinin (London) kolleksiyasında (şəkil 4), Vyanada (Avstriya) İncəsənət və peşə muzeyinin kolleksiyasında, Türk və İslam incəsənəti muzeyində (İstanbul), Leydi Bailey və Mister Vaydtın şəxsi kolleksiyasında və s. saxlanılır (şəkil 5).



Şəkil 4. "Şah Abbas" yun saray xalısı, London, "Viktoriya və Albert" muzeyi



Şəkil 5. "Şah Abbas" yun saray xalısı, 1600, Leydi Bailey kolleksiyası

Xalçaların yaranmasında rəssamların iştirak etməsini süjetli xalçalar parlaq şəkildə təsdiq edir. Süjetli xalçaların dekoru məntiqi olaraq miniatürlərin üslubunu davam etdirirdi. Təbrizli rəssamlar insanların və bütün canlıların fiqurlarını məharətlə təsvir edirdilər. Təbriz məktəbinin süjetli xalçalarını təhlil edərkən, K.Əliyeva onları personajlı, ovçuluq, heyvan, əjdaha, meşə və bağ xalçaları qruplarına bölür [3, səh.80-103].

Miniatür üslubunda işlənmiş personajlara demək olar ki, süjetli xalçaların hamısında rast gəlinir. Belə xalçaları ayrıca qrup kimi təyin etmək məntiqi olardı. Personajların təsvir olunduğu səhnələr bədii-estetik baxımdan fərqlidir. Məsələn, XVI əsrdə toxunmuş xalçada sarayda ziyafət təsvir olunub və bu xalçanın bir fraqmenti Budapeşt Tətbiqi Sənət muzeyində, bir fraqmenti – Krakov muzeyində saxlanılır (şəkil 6).



Şəkil 6. Süjetli xalça. Səfəvi dövrü. Budapeşt. Krakov Tətbiqi Sənət muzeyi

Süjetli kompozisiyalar arasında ən məşhur kompozisiya şahın ov və çovqan oyunu səhnəsidir. Bu süjet əvvəlki tarixi dövrlərin incəsənətindən, nümunələrindən məlumdur. “Ovçuluq” xalçası ov xalçaları arasında seçilən xalçalardan biridir. XVI əsrin I yarısında toxunmuş Poldi-Petsoli muzeyində (Milan, İtaliya) saxlanılan “Ovçuluq” xalçası (şəkil 7) mütəxəssislərin fikrincə, Səfəvi hökmdarlarının otaqlarını bəzəyirdi. A.Poup və K.Əliyeva belə hesab edirlər ki, xalçanın eskizini Sultan Məhəmməd çəkmişdi [2, səh.83]. Xalçanın kompozisiyası ləçək turunc sxemi üzrə qurulmuşdur. Atlı fiqurlarının hər biri özünə ayrılmış yerdə təsvir olunub: yeddi atlı və bir ayı ilə güləşən piyada ovçu əks edilmiş səhnə ara sahənin hər küncündə təkrar olunur.



Şəkil 7. Təbriz məktəbi, xovlu yun saray “Ovçuluq” xalısı. 335x682 sm, XVI əsr. İtaliya, Milan, “Poldi Pezzoli” muzeyi

Heyvan təsvirlərinin olduğu xalçalarda real və fantastik canlıların təsvirləri yer alır. Bu xalçaların ayrı qrupa ayrılması kifayət qədər şərtidir, çünki heyvan təsviri olmayan süjet xalçası yoxdur. Buna baxmayaraq, bəzi xalçalarda heyvan obrazları üstünlük təşkil edir (şəkil 8.). Bu xalçalarının ən məşhur nüsxələrindən – NyuYork Metropol muzeyində saxlanılan XVI əsrin II yarısında toxunmuş xalça (şəkil 9) və s. adlarını çəkmək olar.



Şəkil 8. Təbriz məktəbi, “Heyvan” təsvirli təsvirli yun xovlu xalça. XVI əsrin axırı, XVII əsrin əvvəli. Hamburg Almaniya



Şəkil 9. Təbriz məktəbi, “Heyvan” yun xovlu xalça. NyuYork Metropol.

Şərq saraylarının bir də özünəməxsus bağ planlaşması var idi. Bu Şərq üslubunda olan cənnət bağları ümumi konsept baxımından bir-birinə oxşardır. Bu sarayların hər birində bağın mərkəzində yerləşmiş saray kompleksi, sarayın önündə yerləşən böyük çar hovuz, sarayla üz-üzə böyük giriş portalı, çar hovuzdan dörd istiqamətdə ayrılan yollar və yollar ətrafındakı yaşıllıq zolaqları var idi və bu xalçalarda öz əksini tapmışdır. Məsələn, Çaharbağ xalçası konsept olaraq 1596-cı ildə böyük Şah Abbas tərəfindən İranın İsfahan şəhərində salınmış Çaharbağ sarayı quruluşunu əks etdirir (şəkil 10.). Bağ xalçalarının dekoru böyük təkamül yolu keçmişdi və bu qrupdan olan məmulatların ən erkən nümunəsi (XVI əsrin əvvəlinə aid edilir) hazırda Vyana İncəsənət və Sənaye muzeyində saxlanılır. Belə bir fikir də mövcuddur ki, bu xalça saray emalatxanasında deyil, Gerisdə toxunmuşdur [11, s.33). Bu təsvirdə ayrı-ayrı dördkünc sahələr (xanalar) bir-birindən “kanallarla” (su axan qollarla) ayrılır. Kanalların kəsişdiyi yerdə kiçik körfəzlər yaranıb, burada balıqlar üzür.



Şəkil 10. “Caharbağ” xalısı. Təbriz məktəbi, bağça təsvirli saray xalısı. Şah Abbas dövrü. Polşa, Krakov Milli muzeyi

Beləliklə, saray xalçalarının unikal nümunələri olan ornamental və süjetli xalçalar sübut edir ki, Səfəvilər dövründə xalçaçılıq yüksək inkişaf edərək peşə çərçivəsindən çıxmış, professional incəsənət səviyyəsinə ucalmışdı. Saray qrupundan olan xalçalar üçün bahalı material – ipək, qızıl və gümüş saplardan istifadə edilirdi. Bu xalçalar özünün zəngin və ahəngdar rənglər qamması ilə seçilirdi. Saray xalçalarında fon adətən sarı yaxud sürməyi qırmızı rəngdən, naxışlarda isə saysız-hesabsız rəng çalarlarından istifadə olunurdu. Bu çalarlar kompozisiyanın rəngini daha da zənginləşdirirdi.

## Ədəbiyyat siyahısı:

1. Абдуллаева, Н.А. Ковровое искусство Азербайджана. / Н.А. Абдуллаева – Баку: Элм – 1971 – 150 с.
2. Алиева, К.М. Безворсовые ковры Азербайджана / К.М. Алиева – Баку: Элм – 1988 – 90 с. с илл.
3. Алиева, К.М. Тебризская ковровая школа XVI – XVII вв. / К.М. Алиева – Баку: Элм – 1999 [25, s.73-75]. , s.77.
4. Белль, Дж. Путешествия через Россию в разные асиятские земли, а именно: в

Испаган, в Пекин, Дербент и Константинополь (заметки английского путешественника Джона Белля) – Санкт-Петербург – 1776.
5. Бретаницкий, Л.С. Искусство Азербайджана IV – XVIII веков. / Л.С. Бретаницкий, Б.В.Веймарн – Москва: Искусство – 1976.
6. Гогель, Ф.В. Ковры. / Ф.В.Гогель – Москва: Гос. изд. арх. и градостроит. – 1950.
7. Керимов, Л.Г. Азербайджанский ковер [в трех томах] / Л.Г.Керимов – Баку-Ленинград – Том 1 – 1961 – 114 с. с таблицами. s.125
8. Керимов, Л.Г. Азербайджанский ковер [в трех томах] / Л.Г.Керимов – Баку-Ленинград – Том 2 – 1983 – 241 с.
9. Survey of Persian art. From prehistoric time to the present. Editor Arthur Upham Pope. V.III. Oxford University press. – London-New York – 1939. – 2817 p.
10. Karabacek Jos. Die Persiche Nadelmalerei Susandichird / J.Karabacek – Leipzig – 1887.
11. Ruedin Gans E. Der Persishe Teppich. / G.E.Puedin – Switzerland – 1978 – p. 546.
12. Mankoyiski, T. Wyprawa po kobiercie do Persji w roku 1602. / T.Mankoyiski – Warsaw. Rocznik Orientalistyczny. Krakow – 1939.

**Гасымзаде Гюльшан Тофик**

## ДВОРЦОВЫЕ КОВРЫ АЗЕРБАЙДЖАНА СЕФЕВИДСКОГО ПЕРИОДА В СРЕДНЕВЕКОВЬЕ

**Резюме** В статье рассматриваются этапы исторического развития азербайджанского ковроткачества во времена правления династии Сефевидов в различных контекстах. Уточняются истоки развития ковроткачества в Азербайджане, его традиционные особенности, взаимосвязь с мировым искусством, место и значение в мировой культуре. В статье исследуется разнообразие художественно-эстетических характеристик азербайджанских ковров времен правления династии Сефевидов, различные школы ковроткачества, их художественные особенности, специфические виды узоров, техники ковроткачества, а также современное состояние этого древнего вида искусства в Азербайджане.

**Ключевые слова:** миниатюрный стиль, ковер, орнамент, искусство, дворец, изобразительное искусство, Сефевиды, декоративно-прикладное искусство

**Gasimzade Gulshan Tofiq**

# PALACE CARPETS OF THE SAFAVID PERIOD OF AZERBAIJAN IN THE MIDDLE AGES

**Summary.** The article examines the historical development stages of the Azerbaijani carpet during the reign of the Safavid dynasty in various contexts. Various topics such as the source of the development of carpet weaving in Azerbaijan, traditional features of national carpets, their interaction with World Culture, place and importance in world culture, as well as the protection of household carpets are clarified. The history and diversity of Azerbaijani carpets are studied and conditionally divided into different regional carpet weaving schools. An analysis of these schools, their features, characteristic types of patterns and techniques of carpet weaving is carried out. The current situation in this area of ancient art is being discussed in Azerbaijan.

**Key words:** miniature, carpet, ornament, art, palace, fine art, Safavid era, arts & crafts

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**